# Heç kəs unudulmur



Vətən torpaqlarının bir qisminin yad tapdaqlarından azad olunması üçün igidliklə döyüşən qəbələli gənclər şəhidlərimizin qanını yerdə qoymadılar, döyüşlərdə hər an öndə oldular və zəfər tarixini yazdılar. Şəhadətə qovuşanlar-vətən fədailəri daima qəlbimizdə əbədi yaşayır, unudulmurlar. Onların ailələri də həmişə diqqət önündədir.

Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev bir qrup şəhid ailələri ilə görüş keçirmişdir. Görüşdə şəhid ailələri fərdi qaydada dinlənilmiş, onları narahat edən məsələlərin həlli barədə müzakirələr aparılmış, problemlərin bir qismi yerindəcə həll edilmiş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Görüşdə iştirak edən şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Həmişə bahar ömürlü

Vətən müharibəsində qəhrəmancasına şəhadətə yüksələn Zeynallı Əsəd Ərzuman



oğlunun doğum günü münasibətilə rayon icra hakimiyyətinin, təhsil şöbəsinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, şəhidin ailə üzvləri və təhsil aldığı məktəbin kollektivi şəhidin məzarını ziyarət etmişlər. Şəhidin məzarı üzərinə gül dəstələri qoyularaq xatirəsi sonsuz ehtiramla anılmış və ruhuna dualar oxunmuşdur. Şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə şəhidin valideynləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

# Vətən müharibəsi iştirakçıları və qazilərlə görüş

Qəbələ Rayon İcra Hakimiyyətində bir qrup Vətən müharibəsi iştirakçıları və qazilər ilə görüş keçirilmişdir. Rayon icra hakimiyyəti başçısının, Qəbələ Rayon Prokurorunun, RİH-nin məsul əməkdaşlarının iştirak etdiyi görüşdə vətən müharibəsi iştirakçıları və qazilər fərdi qaydada dinlənilmiş, qaldırdıqları məsələlərin həlli barədə müzakirələr aparılmış, bir qismi yerindəcə həll edilmiş, digərlərinin isə həlli nəzarətə götürülmüşdür. Görüşdə iştirak edən Vətən müharibəsi iştirakçıları və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



# Şəhid Ruslan bulağı



Vətən müharibəsi zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış Ruslan İdrisovun xatirəsini əbədiləşdirmək məqsədilə şəhidin yaşadığı Qəbələ şəhər Muxtar Abduyev küçəsində yerləşən binanın qarşısında inşa edilmiş bulaq kompleksinin açılış tədbiri keçirilmişdir. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin nümayəndələrinin, şəhidin ailə üzvlərinin, təhsil aldığı məktəbin kollektivinin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən, şəhidlərin şərəfli döyüş yollarından danışmış və onların xatirələrinin heç bir zaman unudulmayacağını vurğulamışlar. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



# "Sənli" - sənsiz doğum günü

Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz bu müqəddəs amal uğrunda



şəhid olursa, bu, xalqımızın böyüklüyüdür. Şəhid verməyən xalqın mənliyi olmaz. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Bizim xalqımız Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqdır.

İgid qardaşlarımız bu qəhrəmanlığı, mübarizliyi 2020-ci il 27 sentyabrda başlanan Vətən Müharibəsi zamanı bütün dünyaya nümayiş etdirdilər. Düşmən təxribatının qarşısını alarkən canından keçən nə qədər mərd oğullar fəda verdik. Həmin gün onlar düşməni bir addım da irəli buraxmamaq üçün son damla qanlarına kimi vuruşdular.

Bu igid oğullarımızdan biri də rayonumuzun Əmirvan kəndində dünyaya göz açmış Bayramov Aydın Mətləb oğludur. Bayramov Aydın 1997-ci il avqust ayının 2-də anadan olub. 2003-2017-ci illərdə Y. Vəliyev adına Əmirvan kənd tam orta məktəbində təhsil alıb. 2015-2017-ci illərdə hərbi xidmətdə olub. 2020-ci il sentyabr ayının 21-də qismən səfərbərlik elan edildikdə torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərə qatılıb və oktyabr ayının 28-də qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin!

**Şəhla BAYRAMOVA,**
**Qəbələ şəhəri.**



# Obamızın gənc, mərd oğlu

Vətən göylərində duruldu onlar... Vətən göylərini seçdilər, qayalarda mamır olub bitərək, öz mənliklərini, vətən oğulları olduqlarını, vətən çağırışına səs verdiklərini, qəhrəmanlıqlarını təsdiq etdilər və ruhları insan ömrünün qəhrəmanlıq səviyyəsinin ən pik nöqtəsi olan göylərin zirvəsində məskən saldılar. Əbədiyyət adlı bir dünyanın övladları oldular. O övladlardan biridir obamızın gənc, mərd oğlu Ümman...

Ümman Əmiraslanov 1996-cı il dekabrın 21-də Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olub. Ailədə 5 nəfər oldular (atası II qrup əlildir və bacılarından biri daun sindromludur). O, 3 bacının tək qardaşı idi. 2003-2014-cü illərdə Qəbələ rayonu Şəhid Şükran Eyvazov adına Yemişanlı kənd tam orta məktəbində təhsil alıb. 2014-cü ildə həqiqi hərbi xidmət yaşı çatsa da, ayağındakı problem üzündən (ayağının altı düz olduğu üçün) xidmətə yararsız hesab edilir. Buna baxmayaraq israrları sayəsində istəyinə nail olur və xidmətə yollanır (Sumqayıt, N saylı hərbi hissə, kəşfiyyat bölüyü). 2016-cı ildə xidmətini başa vurur. Ailəsi ilə Bakıya köçsə də pandemiya səbəbi ilə yenidən Qəbələyə, kəndlərinə qayıdırlar. Qəbələdə "OBA" marketdə çalışır, idarəçi işinə qədər yüksəlir. 14 iyul 2020-ci il tarixində (General Polad Həşimovun şəhadətə yüksəlməsi xəbərindən sarsılaraq) könüllü olaraq orduya yazılır. "Vətən müharibəsi" başlayan zaman könüllü şəkildə döyüşlərə yollanır. Yaşayış məntəqələrimizin azad edilməsində xüsusi igidlik göstərir. 2 oktyabr 2020-ci il tarixində Tərtər rayonu ərazisində şəhid olur.

Ümman Əmiraslanovun ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**"Qəbələ"**